Elm.- 2025.- 30 may(№19).- S.8.

# Azərbaycan dilinin böyük frazeoloji lüğəti

**AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsinin baş elmi işçisi filologiya elmləri doktoru Nəriman Seyidəliyev və mərhum professor Bayram Əhmədovun "Azərbaycan dilinin böyük frazeoloji lüğəti"nin II cildi çap olunub.**




Dilçilik İnstitutunun Elmi şurasının qərarı ilə çap olunan lüğətin elmi redaktoru professor Nadir Məmmədli, redaktorları professorlar İsmayıl Məmmədli, Sevinc Əliyeva və dosent Gülarə Əmirovadır.

Rəyçilər professorlar Sevil Mehdiyeva, Gülnarə Sadıqova, Abbas Abbasov, dosentlər Fidan Salayeva, Amil Cəfərov və Aqil Cəfərovdur.

Azərbaycan dilinin frazeoloji lüğətindən orta və ali məktəb müəssisələrində, kurslarda, lüğətçilik tədqiqatlarında, gənc alimlərin elmi araşdırmalarında, türkdilli xalqların böyükhəcmli lüğətlərinin hazırlanmasında dəyərli bir vəsait kimi istifadə oluna bilər. Bununla yanaşı, geniş oxucu kütləsi üçün də faydalıdır.

Aydın tərtib prinsipləri və elmi cəhətdən düzgün əsaslandırılmış strukturu ilə fərqlənən mükəmməl sözlükdə frazeologiyanın hüdudları dəqiq müəyyənləşdirilib, sabit söz birləşmələri, mürəkkəb sözlər, tərkibi fellər, məcazlar, obrazlı ifadələrlə frazeologiya arasında münasibətlər aydınlaşdırılıb. 20 min 500-ə qədər frazeoloji vahidin izahının verildiyi lüğətdə "K-Z" hərfləri əhatə edilib.